Azərbaycan Əmanətlərin Sığortalanması Fondu
ADIF
Azerbaijan Deposit Insurance Fund

№ 73
«07» Aprel 2009-cu il

**Əmanətlərin Sığortalanması Fonduna üzv bankların İdarə heyətinin sədrlərinə**

Nəzərinizə çatdırmaq istəyirik ki, "Əmanətlərin Sığortalanması haqqında" Qanunun 2.1.2.6-cı maddəsinə əsasən **cəlb edildiyi günə** Azərbaycan Respublikası Milli Bankının uçot dərəcəsinin 1,8 mislindən yuxarı illik faiz dərəcəsi ilə qəbul edilmiş əmanətlər qorunan əmanət sayılmır. Əvvəllər banklara Qanunun bu maddəsinin izahı ilə bağlı məktublar ünvanlamağımıza baxmayaraq, hələ də bir sıra banklar hər dəfə Azərbaycan Respublikası Milli Bankının uçot faiz dərəcəsinin dəyişdirilməsini əsas götürərək, əvvəllər qəbul edilmiş və cəlb edildiyi günə Azərbaycan Respublikası Milli Bankının uçot faiz dərəcəsinin 1,8 mislindən yuxarı olmayan illik faiz dərəcəsi ilə yerləşdirilmiş əmanətləri əsassız olaraq qorunan əmanətlər siyahısından çıxarır və Fonda təqdim olunan rüblük hesabatlarında qorunan əmanətlərlə bağlı məlumatları düzgün əks etdirmirlər.

Təkrar olaraq bildiririk ki, Azərbaycan Respublikası Milli Bankının uçot faiz dərəcəsinin dəyişməsi dəyişikliyin edildiyi tarixdən əvvəl qəbul edilmiş və qorunan əmanət hesab edilən əmanətlərə şamil edilmir və həmin əmanətlər **cəlb edildiyi günə** qorunan əmanət hesab edilmişsə, müqavilə müddətinin sonuna kimi Fond tərəfindən sığortalanır və Azərbaycan Respublikası Milli Bankının uçot faiz dərəcəsinin sonradan dəyişməsi həmin əmanətlərin qorunan əmanətlər siyahısından çıxarılması üçün əsas hesab edilə bilməz. Azərbaycan Respublikası Milli Bankının uçot faiz dərəcəsinin dəyişilməsi yalnız yeni (uçot dərəcəsinin dəyişdiyi tarixdən sonra) cəlb edilmiş əmanətlərə şamil edilir.

Əmanətçilərdən əmanətlər qəbul edərkən və Fonda rüblük hesabatlar təqdim edərkən, yuxarıda göstərilənləri nəzərə almağınızı sizdən xahiş edirik.

**İcraçı Direktor:** **Azad Cavadov**

AZ1001, Bakı şəhəri, Həsən Abdullayev küçəsi 11
**Telefon:** (+994 12) 437 30 34, 437 30 35, 437 30 36 **Faks:** (+994 12) 437 30 38 **E-mail:** adif@adif.az **URL:** www.adif.az